BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2015*

## PEDAQOGİKA

UOT 378

# TƏLƏBƏ MÜSTƏQİL FƏALİYYƏTİ MÜSTƏVİSİNDƏ MÜHAZİRƏ MƏŞĞƏLƏLƏRİNİN TƏŞKİLİ İMKANLARI

**R.M.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***social-sciences@bsu.az***

*Ali məktəbdə mühazirə məşğələləri özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Bu fərqləri açıqlamaq üçün müəllif müxtəlif alimlərin mühazirə məşğələləri qarşısına qoyduğu məqsəd və vəzifələri açıqlayır, alimlərin problemə münasibətini təhlil edir və qeyd edir ki, problemə münasibət zamandan asılı olaraq müxtəlif olmuşdur. Müasir dövrdə mühazirə məşğələsinə münasibət dəyişmişdir. Əgər əvvəllər mühazirə məşğələsi informasiyaverici xarakter daşıyırdısa, bu gün tələbə müstəqil fəaliyyəti üzərində qurulur. Müəllif problemə bu meyardan yanaşaraq, tələbə müstəqil fəaliyyəti müstəvisində mühazirə məşğələsinin təşkili imkanlarını açıqlayır.*

**Açar sözlər:** tələbə, təlim fəaliyyəti, auditoriya məşğələsi, mühazirə məşğələsi, müstəqil iş, tələbə müstəqil fəaliyyəti

Tələbə ali məktəbdə təlim fəaliyyətinə auditoriya məşğələsi-adətən mühazirə məşğələsi ilə başlayır. Orta məktəbi bitirib ali məktəbə qəbul olmuş tələbənin həyatında ilk məşğələnin rolunu heç kimə izah etməyə ehtiyac yoxdur. Həyatının yeni mərhələsinin ilk məşğələsi-bu məşğələ forma və məzmun etibarı ilə tələbə üçün yenidir, maraqlıdı, mürəkkəbdir, ziddiyyətlidir. Buna görə də ilk məşğələ xüsusi statuslu olmalıdır. Məhz bu məşğələdə o, orta məktəb məşğələləri ilə ali məktəb məşğələsini müqayisəli təhlil edir, onlar arasındakı fərqi axtarır. Görəsən, orta məktəb məşğələləri ilə ali məktəb məşğələləri arasında fərq olmalıdırmı?

Sual özü-özlüyündə həm strateji, həm də taktiki planda əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Təhsil Qanununda qeyd edilir ki, «tam orta təhsil səviyyəsində təhsil alanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissini və

tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasıya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur», «ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksəkixtisaslı mütəxəssislərin və elmi pedaqoji kadrların hazırlığı həyata keçirilir» (AR, Təhsil Qanunu). Göründüyü kimi, təhsilin müxtəlif pillələri olan tam orta məktəblə ali məktəb təhsilinin qarşısına tamamilə düzgün olaraq fərqli məqsədlər qoyulmuşdur. Tam orta məktəbdə həyata keçirilən bütün pedaqoji işlər şəxsiyyətin sosiallaşması, ali məktəbdə isə yüksəkixtisaslı kadr hazırlığı müstəvisində həyata keçirilir. Buna görədir ki, onların məzmunu, forma və metodları arasında mühüm fərqlər vardır. Təəssüf hissi ilə qeyd edilməlidir ki, bir sıra hallarda müəllimlər bu fərqləri nəzərə almırlar və ya daha dəqiq ifadə etsək, ala bilmirlər. Yuxarı kurs tələbələri ilə həyata keçirilən sorğu zamanı onlara təqdim olunan «orta məktəblə ali məktəbdə müəllimlərin biliyi tədris etmə texnologiyalarında hansı fərqlər vardır?» sualına tələbələrin verdikləri cavablar, demək olar ki, birmənalı olmuşdur. Onların 85%-i «elə bir fərq hiss etmirəm» cavabını vermişlər. Onlar fikirlərini belə izah etmişlər ki, «Orta məktəbdə də müəllim yeni dərsi danışır, sonra soruşur, ali məktəbdə də. Fərq yalnız bundadır ki, orta məktəbdə bütün bunlar bir dərsin çərçivəsində, ali məktəbdə isə mühazirədə yeni biliklər verilir, seminarda isə soruşulur» (respondentlərin ümumiləşdirilmiş cavabı). Maraqlıdır ki, sorğuda iştirak edən tələbələrin 45%-i «məgər fərq olmalıdır ki?», 55% -i isə «fərqin olmasını zəruri hesab etdiklərini» bildirmişlər.

Müəllimlər isə bunun əksini düşünürlər. Onların 70%-nin fikrincə, ali məktəbdə tədris etdiyi fənn üzrə tədris texnologiyası orta məktəb texnologiyalarından köklü surətdə fərqlənir, müəllimlərin 30% -i isə hesab edir ki, «biliyin verilmə texnologiyasında elə də bir fərq olmamalıdır».

Bəs, ali məktəbdə mühazirə məşğələləri nə ilə fərqlənməlidir? Bu məsələni aydınlaşdırmaq üçün əvvəlcə mühazirə məşğələsinin qarşısına hansı məqsəd və vəzifənin qoyulduğunu müəyyənləşdirmək lazımdır. Pedaqoji ədəbiyyatda bu məsələ diqqət mərkəzində olmuş, alimlər problemə öz münasibətlərini bəsləmişlər. Amma müxtəlif dövrlərdə ali məktəbdə kadr hazırlığı məsələsinin qarşısına qoyulan məqsəddən asılı olaraq bu münasibət birmənalı olmamışdır.

S.İ.Arxangelskinin fikrincə, «mühazirə tələbələri öyrənilən predmetin əsas məzmunu, prinsip və qanunauyğunluqları, həmin elm sahəsinin inkişafının zəruri ideya və istiqamətləri ilə tanış etmək kimi təlim vəzifəsinə malikdir. Mühazirə müəyyən elm sahəsinin əsas elmi-nəzəri müddəaları, onun tətbiqi tərəfi və inkişafının görünən yolları ilə tanış etməlidir. Tələbələr mühazirədə həmin elm sahəsi istiqamətində müstəqil iş üçün istiqamət alırlar» (1, 323).

S.İ.Arxangelskinin izahından göründüyü kimi o, mühazirə məşğələsinə geniş aspektdən yanaşır, onun geniş imkanlarını açıqlayır, əslində mühazirəni böyük idrak laboratoriyası kimi qiymətləndirir. Onun mühazirəsi tədris edilən fənn üzrə tam nəzəri kursun, elmin prinsip və qanunauyğunluqlarının, müddəa-

larının tələbələrə öyrədilməsini, inkişaf perspektivləri və biliyin tətbiqi yolları ilə tələbələrin tanış edilməsini nəzərdə tutur. Bununla yanaşı, o, tələbələrə müstəqil işləmə üçün tapşırıqların verilməsini də yaddan çıxarmır. İlk baxışdan elə görünə bilər ki, S.İ.Arxangelskinin izahında mühazirə məşğələsinin mahiyyəti tam açılmışdır. 1970-ci illərin üfüqündə mühazirə məşğələsinin bu izahı nə qədər tam və təkmil görünürdüsə, müasir dövrün prizmasından baxıldıqda belə yanaşmanın müəyyən nöqsanları açıq-aydın görünür. Həmin dövrdə nəzəri biliklərin yeni nəslə verilməsi üstünlük kəsb edirdi. Bu baxımdan da, S.İ.Arxangelski öz izahında mühazirə məşğələsində nəzəri biliklərin öyrədilməsinə önəm vermiş, biliklərin praktik təcəssümünü isə arxa plana keçirmiş və tələbəni yalnız nəzəri biliklərin tətbiqi yolları ilə tanış etməni məqsədəuyğun hesab etmişdir. Elə buna görə də, tələbələrin mühazirə məşğələsində müstəqil iş üçün istiqamət aldıqlarını bildirir. Burada müəllif tələbələrə verilmiş nəzəri biliklərə əsasən verilmiş tapşırıqların müstəqil olaraq öyrənilməsi üçün verilən tapşırıqları nəzərdə tuturdu. Həmin dövrdə tələbələr mühazirə məşğələsində onlara verilmiş tapşırıqları müstəqil olaraq öyrənir, seminar məşğələsində öyrəndiklərini danışır və qiymətləndirirlər. Nəticədə nəzəri cəhətdən, ola bilsin ki, kifayət qədər informasiyaya malik olan tələbə, biliyin praktikada tətbiqi zamanı çətinlik çəkirdi. Halbuki, müasir dünyada biliyin praktikaya tətbiqi gənc kadrın keyfiyyət göstəricisi kimi qiymətləndirilir.

Problemin qoyuluşu baxımından M.İsmixanov və R.Bəxtiyarova bir qədər irəli getmişlər. Onların fikrincə, «Mühazirə bir neçə vəzifəni yerinə yetirir: a) tələbələri elmi biliklərlə silahlandırmaq (xüsusən elmdəki yeniliklərlə, mübahisəli məsələlərlə, problemlərlə onları tanış etmək); b) elmə maraq oyatmaq, yeni məsələləri öyrənmək tələbatı yaratmaq; c) elmi təfəkkürü, elmi dünyagörüşü formalaşdırmaq, tələbələrin ümumi psixi və xüsusən intellektual inkişafına kömək göstərmək; ç) tələbələri müstəqil işə istiqamətləndirmək; d) tələbələrin ideya-mənəvi, estetik tərbiyəsi işinə kömək göstərmək» (2,126).

Müəlliflər mühazirə məşğələsinin təşkilinə daha müasir meyarlarla yanaşır, bu məşğələdə təkcə tələbələri elmi biliklərlə silahlandırmaq deyil, həm də onlarda, çox vacib məqamlardan olan, elmə maraq və oyrənmə təlabatı yaratmaq, elmi təfəkkürü və dünyagörüşünü formalaşdırmaq, intellekti inkişaf etdirmək kimi məsələlərə toxunmuşdur ki, bu da mühazirə məşğələsinin əhəmiyyətini və onda interaktiv metodların tətbiqi imkanlarını artırır. Biz müəlliflərin bu fikirləri ilə tamamilə razı olduğumuz halda, qeyd etməliyik ki, onlar mühazirə məşğələsində tələbənin müstəqil fəaliyyəti məsələsinə etinasız yanaşmış, bu məşğələnin tələbəni müstəqil işə istiqamətləndirməsi ilə fikirlərini yekunlaşdırmışlar. Halbuki, yuxarıda qeyd etdiyimiz kimi müəlliflər mühazirə məşğələlərində tələbələrin elmi təfəkkürünün, dünyagörüşünün formalaşması, intellektin inkişafı məsələlərinə toxunmuşlar ki, bu da fəal təlim metodlarının tətbiqi nəticəsində həyata keçirilə bilər. Fəal təlim metodlarının tətbiqi isə mühazirə məşğələsi, müəllim-tələbə münasibətlərinin yeni formasında, tələbənin müstəqil fəaliyyətinin genişləndirilməsi zamanı mümkündür. Əgər mühazi-

rə məşğələsində tələbə müstəqil fəaliyyəti yoxdursa, orada elmi təfəkkürün, dünyagörüşünün formalaşması, intellektin inkişafı məsələlərindən danışmaq olarmı?

Bununla yanaşı, müəlliflər mühazirə məşğələsinin vəzifələri sırasına tələbələrin ideya-mənəvi, estetik tərbiyəsi işinə kömək göstərməyi də əlavə etmişlər. Hər bir mühazirə müəllimi təbii ki, tələbənin bir şəxsiyyət kimi formalaşmasına, onda müəyyən mənəvi keyfiyyətlərin və s. inkişafına diqqət yetirməlidir. Lakin bunu mühazirə məşğələsinin vəzifəsi kimi yox, ali məktəbdə tələbə şəxsiyyətinin sosiallaşması kontekstində araşdırmaq daha məqsədəuyğun olardı.

Mühazirə məşğələləri «dinləyiciləri gerçəkliyin dərindən dərk edilməsi və öyrənilməsinə istiqamətləndirməlidir» (3, 214), «tələbələrdə təkcə nəzəri biliklər deyil, həm də praktik bacarıqlar aşılamalıdır» (3, 214), «tələbələri konkret elmin metodoloji əsası, aparıcı nəzəri elmi müddəaları ilə tanış edir, onları (tələbələri) elmi axtarışlara, müstəqil işlərə və özünütəhsilə istiqamətləndirir» (3, 216) müddəalarına söykənən F.Rüstəmov və T.Dadaşova problemə daha kompleks şəkildə yanaşaraq, qeyd edirlər ki, «yaxşı qurulmuş mühazirə tələbəni düşündürür, mühazirə müddətində meydana çıxan suallara cavab tapmağa, diqqəti cəlb edən maraqlı və əhəmiyyətli müddəaları müəyyənləşdirməyə və yəqinləşdirməyə təhrik edir».

Müəlliflərin problemə yanaşma tərzi aydındır. Onlar mühazirə məşğələsində tələbənin idrakı fəallığına xüsusi diqqətlə yanaşır, nəzəri biliklər verilməsi ilə yanaşı praktik bacarıqların aşılanmasını, elmin metodoloji əsasları və aparıcı nəzəri elmi müddəalarla tələbələrin tanış olmasını üstün tutur, bütün bu fəaliyyətin nəticəsini tələbələrin müstəqil işə və özünətəhsilə istiqamətlənməsində görürlər. Fikirləri ilə bizim mövqeyimizə çox yaxınlaşan F.Rüstəmov və T.Dadaşova öz düşüncələrini daha da inkişaf etdirə bilərdilər. Onların problemə yanaşma tərzi I kurs tələbələri üçün çox münasibdir. Onları müstəqil işə və özünətəhsilə meyllәndirmək tələbəliyin ilk ili üçün olduqca xarakterikdir. Bəs, yuxarı kurslarda necə olmalıdır? Əgər biz I kursda təhsil alan tələbələrdə praktik bacarıqlar aşılayıb, onları müstəqil işə və özünütəhsilə istiqamətləndirmişiksə, yuxarı kurslarda (II-IV kurslar nəzərdə tutulur) onların müstəqil işləmək keyfiyyətlərindən niyə istifadə etməyək? Bu məsələni arxa plana atan müəlliflər, ona görə də, mühazirə məşğələlərinin didaktik vəzifələrini izah edərkən, tələbədə müstəqil işləmə keyfiyyətlərinin formalaşmasına diqqət yetirməmişlər. Onlar mühazirə məşğələsinin didaktik vəzifələrinə aşağıdakıları daxil etmişlər:

-təlimin məqsəd və vəzifələrini müəyyənləşdirmək və əsaslandırmaq, mövzuya tələbat yaratmaq;

-yeni məlumatların, informasiyaların verilməsi və mənimsənilməsini təmin etmək;

-obyektiv hadisələri aşkarlamaq, nümayiş etdirmək, imkan daxilində eksperimental yolla öyrətmək;

-obyektiv hadisələr arasındakı kəmiyyət və keyfiyyət asılılıqlarını müəyyənləşdirmək;

-əsas hipotezlər müəyyənləşdirmək;

-öyrənilən elm sahəsinin aparıcı nəzəri problemlərini aşkarlamaq;

-intellektual bacarıq və vərdişlər aşılamaq;

-təlim motivlərini inkişaf etdirmək;

-elmi nəzəriyyənin müşahidə olunan gerçəkliklə və praktika ilə müqayisəsini vermək;

-tədris olunan elmin digər elmlərlə inteqrasiyasını təmin etmək.

Qeyd olunan didaktik məqsədlərdən görünür ki, müəlliflər problemə çox böyük miqyasdan yanaşmış, öyrənməyə təlabat yaratmaq, informasiyaların verilməsi və mənimsənilməsini təmin etmək, hadisələri eksperimental yolla öyrətmək, hipotezlər müəyyənləşdirmək, intellektual bacarıq və vərdişlər aşılamaq, təlim motivlərini inkişaf etdirmək, öyrənilən materialın gerçəkliklə və praktika ilə müqayisəsini vermək kimi məsələlərə toxunmuşlar. Burada onların qeyd etdiyi vəzifələr içərisində elə məqamlar vardır ki, onları tələbə müstəqil fəaliyyətinin təşkili olmadan həyata keçirmək olmaz. Məsələn, informasiyaların mənimsənilməsinin təmin edilməsi, hadisələri eksperimental yolla öyrətmək, hipotezlər müəyyənləşdirmək, intellektual bacarıq və vərdişlər aşılamaq, təlim motivlərini inkişaf etdirmək mütləq şəkildə tələbə müstəqil fəaliyyətinin təşkili nəticəsində mümkündür. İstənilən halda müəlliflərin fikirləri pedaqogika nəzəriyyəsində ali məktəbdə mühazirə məşğələlərinin təşkili probleminin həllinə öz töhfəsini vermişdir.

Müəlliflərin hər birinin fikrinə böyük hörmət bəsləyərək, qeyd etməliyik ki, mühazirə məşğələsinin məzmununun açıqlanması baxımından yetkin fikir yoxdur. Problemin məntiqli həlli üçün, fikrimizcə, mühazirə məşğələsinin qarşısında duran vəzifələri daha dərindən təhlil etmək lazımdır. İlk növbədə, qeyd etmək lazımdır ki, mühazirə ikitərəfli prosesdir, burada həm müəllim, həm də tələbə iştirak edir. Hər bir şeyi də bu münasibətlər çərçivəsində həll etmək lazımdır. Bu istiqamətdə problemə yanaşdıqda, qeyd edilməlidir ki, mühazirə məşğələsi, ilk növbədə, müəllimlə tələbənin qarşılıqlı münasibətlər sistemidir. Bu münasibətlər sistemində müəllim öyrədir, tələbə öyrənir. Problemə ən azı belə yanaşdıqda mühazirə məşğələsi prosesində hər iki tərəfin müstəqil fəaliyyəti aydın görünür. Müəllim-tələbə münasibətlərinin subyekt-obyekt münasibətləri kimi qiymətləndirilməsindən subyekt-subyekt münasibətləri kimi mənalandırılmasında bu məqamın rolu az deyil. Əgər tələbə fəaliyyət göstərmirsə, müəllim ona nəsə öyrədə bilərmi? Əlbəttə ki, xeyr. Deməli, mühazirə müəllimi, hər şeydən əvvəl, tələbənin müstəqil fəaliyyətini təşkil etməli, idarə etməlidir. Bunun üçün, ilk növbədə, tələbəyə müstəqil fəaliyyət göstərmə bacarıqları aşılanmalıdır. İ.M.Feyqenberqin yazdığı kimi «mühazirə sualları üzə çıxarmalı və onlara kitabda, səlahiyyətli adamlarla (xüsusən müəllimlərlə) söhbətdə, müşahidələrində, düşüncələrində, eksperimentlərdə cavab tapmağa

həvəsləndirməli, nəhayət cəhd göstərmə qabiliyyətini inkişaf etdirməli, lazımi məlumatı tapmağı və onları təhlil etməyi öyrətməlidir» (4)

Tələbənin müstəqil fəaliyyətə başlaması onun motivasiya sferası ilə bağlıdır. Tələbə nə üçün təhsil alır? Bu, çox vacib məqamdır. Bütün alimlər birmənalı şəkildə təhsil alanın motivasiya sferasının təhsilin keyfiyyətinə təsir etdiyini qəbul edirlər. Aparılan tədqiqatlar açıq-aydın göstərir ki, tələbə idraki motivlərə malik olduqda mühazirə məşğələsinin səmərəsi artır. Lakin bu, hələ o demək deyildir ki, tələbənin təkcə idraki motivlərə malik olması kifayətdir. Xeyr. İdraki motivlər yalnız auditoriyada bilik əldə etmək həvəsini artırır, əgər idraki motivlər tələbənin gələcək həyatı ilə bağlı deyilsə, yalnız bilik əldə etmək həvəsi ilə bağlıdırsa, bir müddət sonra o öz əhəmiyyətini azalda bilər. Təhsil alan tələbə öz gələcək karyerası haqqında düşünməlidir. O, öz gələcək karyerasını aydın təsəvvür etməlidir, bu karyeraya sahib olmaq üçün ona hansı biliklərin lazım olduğunu bilməlidir. Mühazirə müəllimi bu məqamları unutmamalı və tədris etdiyi fənnin tələbə üçün hansı sosial əhəmiyyət daşıyacagını onun başa düşməsi üçün şərait yaratmalıdır. Tələbə əmək birjalarında iştirak etməli, kadr seçiminin necə aparıldığını, hansı kadrlara üstünlük verildiyini bilməli, rəqabətin gərginliyi haqqında məlumata malik olmalıdır. Təbii ki, heç də bütün tələbələr gələcək karyera haqqında düşünmür, əmək birjası, kadr seçimi, rəqabətə davamlılıq və s. məsələlər haqqında məlumata malik olmur. Onlar haqqında məlumat vermək, tədris etdiyi fənnin tələbənin gələcək karyerası üçün əhəmiyyətlilik dərəcəsini tələbəyə izah etmək mühazirə müəlliminin vəzifə borcu kimi qiymətləndirilməlidir. Bu istiqamətdə mühazirə məşğələsində tələbənin motivasiya sferasının formalaşması on plana çəkilməlidir.

Mühazirə müəllimi bir məqama da diqqət yetirməlidir. Bu gün tələbənin, obrazlı desək, bir yox, iki müəllimi vardır – biri auditoriyada fənni tədris edən müəllim, digəri virtual müəllim. Heç kimə sirr deyil ki, bu gün tələbələrin, demək olar ki, hamısı informasiya – kommunikasiya texnologiyalarından istifadə edirlər. İKT-dən istifadə, əlbəttə ki, yaxşıdır. Lakin burada iki cəhətə diqqət yetirmək vacibdir:

-tələbə İKT-dən hansı məqsədlər üçün istifadə edir. Məlumdur ki, əksər tələbələr İKT-dən lazımi məqsədlər üçün istifadə etmir, lazımsız oyunlar oynayır, tanımadığı adamlarla məktublaşır, onun inkişafı üçün lazım olmayan materiallarla tanış olur və s. Bu baxımdan müəllim tələbənin İKT-dən istifadəsinə nəzarət etməlidir.

-fənni tədris edən müəllim virtual müəllimlə rəqabətə daxil olur. Mühazirə müəllimi, yoxsa virtual müəllim fənni öyrənmək baxımından tələbəyə daha lazımlı material verir. Müəllim bu cəhəti unutmamalı, əksinə tələbə müstəqil fəaliyyətinin təşkili baxımından ondan yararlanmalıdır. Belə olduqda, fənn müəllimi artıq virtual müllimlə rəqabətə girmir, əksinə onunla əməkdaşlıq etmiş olur. Başqa sözlə desək, pedaqoji işi belə təşkil etdikdə, mühazirə müəllimi informasiya mənbəyi kimi, necə deyərlər, öz yükünü azaldır, virtual müəllimin informasiya mənbəyi kimi rolunu artırır. Beləliklə, mühazirə məşğələsi

ikitərəfli deyil, üçtərəfli prosesə - mühazirə müəllimi, tələbə və virtual müəllimin əməkdaşlığına çevrilir. Mühazirə müəllimi bu əməkdaşlıqda əsas rola malik olub, tələbə ilə virtual müəllimin əməkdaşlığını təşkil edir və bu əməkdaşlığa nəzarət və rəhbərlik hüququnu özündə saxlayır.

Şərti olaraq virtual müəllim adlandırdığımız bu aləmdə fənn müəlliminin öz mühazirələri, bu fənni tədris edən digər müəllimlərin mühazirələri, həmin proqram əsasında həm respublikada, həm də xarici ölkə ali məktəb müəllimlərinin mühazirələri, fikirləri, düşüncələri müxtəlif monoqrafiyalar, məqalələr, tezislər formasında öz əksini tapır. Virtual aləm özü-özlüyündə rəqabəti yaradır və fənn müəlliminin məsuliyyətini artırır. Beləki, tələbə tanış olduğu reallıqları öyrəndikcə, onun müəlliminin hadisələri hansı səviyyədə bildiyini müəyyənləşdirə bilir. Bu aspektdə virtual müəllimin də fənn müəlliminin inkişafında rolu vardır.

Ümumiyyətlə, inkişaf etmiş ölkələrdə müəllimin tələbə tərəfindən seçilməsi virtual aləmin köməyi ilə həyata keçirilir. Tələbə öyrənəcəyi proqrama daxil olan fənləri müəyyən etdikdən sonra, virtual aləmdə ali məktəb, hər bir fənn üzrə təklif etdiyi müəllimlərin təqdimatı və mühazirə materialları ilə tanış olur, onların içərisindən özünə müvafiqini seçir. Belə yanaşma da müəllimlərin məsuliyyətini artırır, müəllimin virtual aləmdə olan materiallarla yaxından tanış olmasını tələb edir. Göründüyü kimi, müəllim özü də virtual aləmlə əməkdaşlıq etməli, oradakı materialları əxz etməli, öz mühazirə materiallarını daima zənginləşdirməlidir. Yalnız belə olduqda, o, tələbə ilə virtual müəllimin əməkdaşlığına rəhbərlik edə bilər.

Mühazirə müəllimi tələbələrdə müstəqil işləmə bacarıqlarının aşılanmasına da diqqət yetirməlidir. Tələbə öyrəndiyi fənn üzrə bilikləri mənimsəmək üçün müəyyən bacarıqlara malik olmalıdır. O, kitabla işləməyi, konspekt tutmağı, müşahidə aparmağı, analiz və sintez, ümumiləşdirmə, müqayisə etməyi, nəticə çıxarmağı, kurs işi yazmağı, nəhayət, tədqiqat aparmağı, öz qənaətini ifadə etməyi və s. bacarmalıdır. Bəzən müəllimlər bu bacarıqların formalaşması üçün zaman lazım olduğunu, illər keçdikcə, tələbə yuxarı kurslarda təhsil alarkən onda bu bacarıqların formalaşacağını düşünürlər. Bu səhv düşüncədir. Tələbə I kursda təhsil alarkən ona bu bacarıqlar aşılanmalıdır, tələbə yuxarı kurslara keçdikcə bu bacarıqlar inkişaf edib, təkmilləşməlidir.

Deyilənlər mühazirə məşğələsinin müasir dövrdə məzmununun yeniləşdiyini, onun informasiya vermə vəzifəsinin arxaya, təşkilati vəzifəsinin önə keçdiyini təsdiq edir. Müəllim bu gün mühazirə məşğələsində tələbədə müstəqil fəaliyyət göstərmə bacarıqlarını formalaşdırmalı, onda müstəqil fəaliyyətə motivasiya yaratmalı, İKT-nin imkanlarından istifadə edərək, onun virtual müəllimlə əməkdaşlığını təşkil edərək, tələbənin yaradıcı şəkildə bilikləri mənimsəməsini təmin etməlidir. Başqa sözlə, müasir dövrdə mühazirə ali məktəbdə təlimin əsas təşkili forması, təlimin fəal metodu olmaqla yanaşı tələbə müstəqil fəaliyyətinin təşkili vasitəsinə çevrilmişdir.

**ƏDƏBİYYAT**

1. Архангельский С.И. Лекции по теории обучения в высшей школе. М.: Высщая школа, 1974, 384с.
2. İsmixanov M., Bəxtiyarova R. Ali məktəb pedaqogikası. Mühazirə kursu. Bakı: 2010, 236 s.
3. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007, 568 s.
4.Фейгенберг И.М. Лекция, отвечающая требованиям времени / Вестник высшей школы. М.: 1989, №1, s. 30-39.

## ВОЗМОЖНОСТИ ОРГАНИЗАЦИИ ЛЕКЦИОННЫХ ЗАНЯТИЙ С ПРИВЛЕЧЕНИЕМ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ

**Р.М.МАХМУДОВА**

**РЕЗЮМЕ**

В высших учебных заведениях лекционные занятия отличаются своеобразными особенностями. Для раскрытия этих различий автор определяет цели и задачи, поставленные перед лекционными занятиями различными учеными, анализирует их отношение к проблеме и отмечает, что это зависит от исторических условий. В современную эпоху изменилось отношение к лекционным занятиям. Если раньше лекционное занятие носило функцию передачи информации, то сегодня оно строится на самостоятельной студенческой работе. Подходя к проблеме с этого критерия, автор раскрывает на уровне самостоятельной работе студентов организационные возможности лекционного занятия.

**Ключевые слова:** студент, обучающая деятельность, аудиторные занятия, лекция, самостоятельная работа студентов.

## THE POSSIBILITY OF ORGANIZING LECTURES INVOLVING STUDENTS' INDEPENDENT WORK

**R.M.MAHMUDOVA**

**SUMMARY**

At higher educational establishments lectures differ for their peculiar features. For the disclosure of these differences the author defines the objectives and tasks set for lectures by various scholars, analyzes related problems, and notes that it depends on the historical conditions. In modern times, the attitude to lecture classes has changed. If earlier lecture classes wore a function of transmitting information, today it is built on self- student work. Approaching the problem with this criterion, the author reveals the level of self -study organizational capacity of the lecture classes.

**Key words:** student, teaching activities, classroom, lecture, self-study students